# BMT-də islahatlar getməlidir:

# 6-cıya, ... ehtiyac var

*Beynəlxalq münasibətlər və qlobal güc balansı zamanla dəyişir, bu dəyişikliklər əvvəlki qurumların ömrünü sona yetirir və ya onları uyğunlaşmağa məcbur edir. Tarix boyu bir çox beynəlxalq təşkilat öz vaxtında təsirli olsa da, zamanla geosiyasi reallıqlara uyğunlaşmadığı üçün ya ləğv edilib, ya da öz aktuallığını itirib. Bu cür dəyişikliklərdən bir neçəsi deməyə əsas verir ki, hazırda dünyada ən böyük təşkilat hesab edilən BMT əgər yeni dünya nizamı ilə ayaqlaşmasa, tarixin səhifələrinə qarışma təhlükəsi ilə üz-üzə qalacaq.*

Azərbaycan Respublikası 1992-ci il martın 2-də Birləşmiş Millətlər Təşkilatına üzv qəbul edilərək beynəlxalq hüququn tanınmış subyektinə çevrildi. Bu akt ölkəmizin suverenliyinin qlobal siyasi sistemdə rəsmi təsdiqi idi. Lakin ötən onilliklər ərzində BMT-nin fəaliyyəti, xüsusilə də Təhlükəsizlik Şurasının qətnamələrinin icrası məsələsi ciddi nəzəri və praktiki suallar doğurmuşdur.

BMT-nin hazırkı strukturu və funksional arxitekturası müasir beynəlxalq münasibətlərin mürəkkəbliyini əks etdirmək iqtidarında deyil. Xüsusilə Təhlükəsizlik Şurasının selektiv qərarları və böyük dövlətlərin geosiyasi maraqlarına xidmət edən mexanizmlərə çevrilməsi bu qurumun legitimlik böhranına düçar olduğunu göstərir. Beynəlxalq sülh və təhlükəsizliyin təminatçısı missiyasını yerinə yetirməli olan bu institut faktiki olaraq dünya nizamında ikili standartların möhkəmlənməsinə və güc siyasətinin dominant olmasına rəvac vermişdir.

Azərbaycanın BMT çərçivəsində təcrübəsi göstərir ki, beynəlxalq hüququn normativ əsasları real siyasət qarşısında aciz qalır. Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələrin icra olunmaması, xüsusilə də Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi ilə bağlı qəbul edilmiş dörd qətnamənin illərlə kağız üzərində qalması bu təşkilatın effektivliyini sual altına alır. Beləliklə, BMT-nin çağdaş dünyada funksionallığı və təsir gücü təkcə nəzəri deyil, həm də praktiki müstəvidə mübahisəli diskursa çevrilir.

Azərbaycan Prezidenti İlham Əliyev 2022-ci il iyunun 30-da Heydər Əliyev Mərkəzində keçirilən Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin Bakı konfransında çıxışında Birləşmiş Millətlər Təşkilatına qarşı prinsipial və kəskin tənqid irəli sürərək beynəlxalq hüququn selektiv tətbiqinin, hegemon dövlətlərin geosiyasi maraqlarının beynəlxalq təşkilatların fəaliyyətinə necə təsir etdiyini açıq şəkildə ifşa etdi. Dövlət başçısının vurğuladığı kimi, Ermənistan-Azərbaycan münaqişəsi təkcə regional deyil, həm də qlobal problematik kontekst daşıyırdı. Çünki bu münaqişə yalnız beynəlxalq hüququn fundamental prinsiplərinin aşınmasını deyil, həm də BMT Təhlükəsizlik Şurasının qətnamələrinin açıq şəkildə pozulmasını və onların icrasına yönəlik iradənin olmamasını nümayiş etdirdi. 1993-cü ildə BMT Təhlükəsizlik Şurası tərəfindən qəbul edilən dörd qətnamə erməni işğalçı qüvvələrinin Azərbaycanın ərazisini dərhal, tam və qeyd-şərtsiz tərk etməsini tələb edirdi. Lakin beynəlxalq sistemin siyasi riyakarlığı və hüquqi nihilizmi bu qətnamələrin icrasını mümkünsüz etdi.

Burada əsas sual ortaya çıxır: nə üçün bəzi qətnamələr sürətlə, cəmi bir neçə gün ərzində icra olunur, lakin Azərbaycana gəldikdə bu sənədlər 28 il ərzində kağız üzərində qalır? Prezident İlham Əliyevin bu ritorik sualı beynəlxalq nizamın real mahiyyətini - onun geosiyasi güclərin təsiri altında formalaşdığını və beynəlxalq hüququn tətbiqinin əsasən siyasi iradə və güc balansı kontekstində müəyyən edildiyini göstərir. Əgər Azərbaycan Ordusunun bölmələrinin şücaəti və siyasi iradə ilə idarə olunan rəşadətli mübarizəsi olmasaydı, bu qətnamələr kağız üzərində daha 28 il qala bilərdi. Bu isə bir daha sübut edir ki, beynəlxalq hüququn effektivliyi yalnız dövlətlərin öz suveren hüquqlarını müdafiə etmək əzmindən və real güc amilindən asılıdır. Beləliklə, beynəlxalq hüquq və təşkilatların funksionallığı məsələsi siyasi fəlsəfi diskursda güc və ədalət münasibətləri çərçivəsində yenidən nəzərdən keçirilməlidir.

Bu reallıq BMT-nin və onun Təhlükəsizlik Şurası çərçivəsində islahatların aparılmasını qaçılmaz hala gətirir. BMT-nin effektiv fəaliyyət göstərə bilməməsi qlobal siyasi və iqtisadi şərtlərin dəyişməsinə paralel olaraq təşkilatın təsir gücünün azalması ciddi bir məsələ olaraq qarşıya çıxır. Bu, öz növbəsində beynəlxalq hüququn və beynəlxalq təşkilatların legitimliyini və gücünü təhdid edir. Mövcud vəziyyət yalnız təşkilatın strukturunun zəifliyindən deyil, həm də BMT-nin dəyişən geosiyasi reallıqlara uyğunlaşmamağından irəli gəlir. Dünya artıq keçmişdəki konfrontasiyaların və münaqişələrin təsiri altında deyil, yeni və daha mürəkkəb təhlükəsizlik və iqtisadi problemlərlə qarşı-qarşıyadır. Bu kontekstdə BMT-nin fəaliyyətini və onun beynəlxalq sülhə verdiyi töhfəni təhlil etmək, əslində qlobal əmin-amanlıq üçün yeni bir modelin yaradılmasını tələb edir.

Azərbaycan Prezidenti İlham Əliyev 2023-cü il yanvarın 8-də Misir Prezidenti Əbdülfəttah Əs-Sisi ilə birgə mətbuata bəyanatında bu ehtiyacı bir daha vurğuladı. Prezident BMT-də islahatların zəruriliyini qeyd edərək xüsusilə Təhlükəsizlik Şurasının tərkibində dəyişikliklərə diqqət çəkdi. Bu dəyişikliklər yalnız təşkilatın ədalətini artırmaqla qalmayıb, həm də qlobal təhlükəsizliyin təmin edilməsinə daha təsirli bir şəkildə xidmət etməlidir. Dövlət başçısının təklif etdiyi islahatlar qlobal güc dinamikalarının təkmilləşmiş əks-sədasıdır. Prezident BMT Təhlükəsizlik Şurasının daimi üzvlərini genişləndirməyi və bununla da qlobal ədalətə daha uyğun nizamın qurulmasını təklif edir. İslam Əməkdaşlıq Təşkilatına və Qoşulmama Hərəkatına daimi üzv statusunun verilməsi təklifi müxtəlif beynəlxalq cəmiyyətlərin daha geniş səslə və bərabər hüquqlarla müzakirələrə qatılmasını təmin edərdi. Bu addım yalnız ədalət prinsiplərinin təmin edilməsinə xidmət etməklə yanaşı, həm də dünyanın sürətlə dəyişən siyasi mənzərəsinə daha uyğun gələcəkdir.

BMT-nin reformu məsələsi İkinci Dünya müharibəsindən sonra yaranan güc strukturlarının artıq müasir dövrün geosiyasi həqiqətləri ilə uyğunlaşmadığını göstərir. Dünya dəyişib və bu dəyişikliklər sürətlə davam edir. BMT-nin bu dəyişikliklərə uyğunlaşa bilməməsi təşkilatın nüfuzunu sarsıdır və beynəlxalq hüququn əsaslarını zədələyir. Cənab İlham Əliyevin bir neçə müddətdir ki, təklif etdiyi islahatlar daha ədalətli və təhlükəsiz dünya nizamının qurulmasına xidmət edəcək addım kimi beynəlxalq münasibətlərdə daha balanslı və əhatəli siyasətin təşviqi üçün əsaslı platforma yaradır.

BMT Təhlükəsizlik Şurasının strukturu və funksionallığı artıq beynəlxalq münasibətlərin dinamikasına uyğun gəlmir. Reallıq onu göstərir ki, Şuranın daimi üzvləri - ABŞ, Böyük Britaniya, Fransa, Çin və Rusiya - öz geosiyasi maraqlarını ön planda tutaraq bu beynəlxalq təşkilatın əsas qərarlarını öz müstəqil iradələri ilə nəzarətdə saxlayır və istədikləri qərarları bloklayırlar. 3 ildir davam edən Rusiya-Ukrayna müharibəsi gedişində BMT-nin qətnamələri və bu qətnamələrin elə daimi üzv tərəfindən blokanması ən böyük absurddur. Bu da onu göstərir ki, Təhlükəsizlik Şurası ədalətli təmsilçiliyə malik deyil.

Strukturun ədalətsizliyi və effektivliyinin olmaması uzun illərdir beynəlxalq arenada kəskin tənqidlə üzləşib. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan da bu qeyri-bərabər və qeyri-demokratik sistemin dəyişdirilməsini təklif edərək "Dünya beşdən böyükdür" doktrinası ilə BMT-nin strukturunun dəyişdirilməsi çağırışını etmişdir. Bu, qlobal idarəetmə strukturlarının yenilənməsi, daha geniş və ədalətli bir beynəlxalq sistemin qurulması məqsədi daşıyır.

Lakin qurumda əsaslı islahatın həyata keçirilməsi mövcud vəziyyətdə yalnız arzu olaraq qalır. Böyük güc sahibi dövlətlər öz geosiyasi üstünlüklərini qorumaq məqsədilə bu struktura möhkəm bağlanıblar və belə islahatlara getməyə razı olmaları ehtimalı çox azdır. Bu, beynəlxalq münasibətlərin fəlsəfi və praktiki təhlilini yeni müstəvidə tələb edir: artıq BMT Təhlükəsizlik Şurasının islahatı mümkünsüz missiyaya çevrilibmi? Və ya əgər bu qurumun islahı mümkünsüzdürsə, bəlkə də onu tətilə göndərmək və yerində daha çevik və müasir bir beynəlxalq təşkilat yaratmaq zərurəti yaranıb?

Fakt budur ki, Təhlükəsizlik Şurasının 5 daimi üzvü arasında 2 milyardlıq müsəlman dünyasını təmsil edən heç bir dövlət yoxdur. Bu, artıq beynəlxalq ədalət və təmsilçilik məsələsinin ciddi təhlilini tələb edir. Həqiqət həm də ondan ibarətdir ki, hazırda 120-dən çox ölkəni birləşdirən Qoşulmama Hərəkatı artıq 200-ə yaxın ölkəni birləşdirən BMT-dən daha çevik və uğurlu format təqdim edir. Qoşulmama Hərəkatı öz təsir gücü və müstəqilliyi ilə yeni beynəlxalq münasibətlər modelini təqdim etməkdədir.

Azərbaycanın BMT-dən gözləntisi isə açıq və qətiyyətlidir - islahatlar aparılmalı, beynəlxalq hüququn selektiv tətbiqinə son qoyulmalı və daha ədalətli dünya nizamı qurulmalıdır. Bu, yalnız dünya ölkələrinin daha güclü və möhkəm birliyə ehtiyacı olduğu deyil, həm də XXI əsrin çağırışlarına adekvat cavab verəcək yeni bir qlobal struktura ehtiyacın olduğunu göstərir. Əks halda, bu struktur öz mövcudluq səbəbini itirər və müasir dünya üçün artıq təkrarlanan, passiv bir qurum halına gələr. Dünyada belə nümunələr var. Məsələn, Birinci Dünya Müharibəsindən sonra 1919-cu ildə Versal Sülh Müqaviləsi ilə bir il sonra qurulmuş Millətlər İttifaqı beynəlxalq əməkdaşlığı təmin etməyi və müharibələrin qarşısını almağı hədəfləyən bir təşkilat idi. Lakin bu qurumun uğursuzluqları onun fəaliyyətini mənasız hala gətirdi. Millətlər İttifaqı güclü dövlətlərin işğalçı siyasətlərini dayandıra bilmədi və xüsusilə Almaniya, İtaliya və Yaponiya kimi dövlətlərin təşkilatdan çıxması bu qurumun gücünü zəiflətdi. ABŞ-ın da iştirak etməməsi təşkilatın nüfuzunu daha da azaltdı. İkinci Dünya müharibəsinin başlanması ilə İttifaq tamamilə fəaliyyətini dayandırdı və 1946-cı ildə rəsmi olaraq ləğv olundu. Daha sonra Sovet İttifaqı və onun müttəfiqləri tərəfindən qurulan Varşava Paktı 1955-ci ildən 1991-ci ilə qədər fəaliyyət göstərdi. Bu qurum əsasən NATO-nun qarşısında sosialist blokunun təhlükəsizliyini təmin etməyə yönəlmişdi. Lakin Sovet İttifaqının süqutundan sonra sosialist blokunun təhlükəsizlik strukturu artıq öz funksiyalarını yerinə yetirə bilmədi. Varşava Paktı üzv ölkələrinin NATO ilə əməkdaşlığa başlaması və yeni təhlükəsizlik dinamikalarının yaranması səbəbindən öz əhəmiyyətini itirdi və 1991-ci ildə rəsmi olaraq ləğv edildi. Bu hadisə qlobal təhlükəsizlik və güc balansının dəyişməsinin təzahürü idi.

Bütün bu tarixi nümunələr bir daha sübut edir ki, beynəlxalq təşkilatlar yalnız mövcud güc balansına uyğunlaşa bildikləri müddətcə effektiv qala bilirlər. Əks halda, onlar zamanın süzgəcindən keçərək ya tamamilə yox olur, ya da nominal funksiyalarla fəaliyyətlərini davam etdirirlər. BMT-nin də hazırkı vəziyyəti bu fundamental qanunauyğunluğun təzahürüdür.

Azərbaycanın çağırışı isə birmənalıdır: ya BMT və onun Təhlükəsizlik Şurası real islahatlara gedərək qlobal ədalət və təhlükəsizliyin təminatçısı rolunu doğruldacaq, ya da öz legitimliyini tamamilə itirərək tarixin arxivinə çevriləcək. XXI əsrin mürəkkəb geosiyasi reallıqları onu göstərir ki, dünya artıq köhnəlmiş institutların süstlüyünü daşımaq iqtidarında deyil. Yeni beynəlxalq nizam isə yalnız güc balansına deyil, ədalət və bərabərhüquqluluq prinsiplərinə əsaslanmalıdır. Azərbaycanın və digər inkişaf etməkdə olan dövlətlərin tələbi də məhz budur - beynəlxalq hüququn selektiv tətbiqinə son qoymaq və həqiqi, ədalətli dünya düzəninin əsaslarını formalaşdırmaq. Əks halda, BMT də Millətlər İttifaqının taleyini yaşayacaq və qlobal siyasətin reallıqlarına uyğun daha effektiv institutlar onu əvəz edəcək.

**Tacir SADIQOV,**
**"Respublika".**